# Hacıqabul şəhər 4 saylı tam orta məktəbin uğurları

Hər bir ümumi təhsil müəssisəsi özünün ənənələri, təhsildə və təlimdə əldə etdiyi nailiyyətləri ilə iz qoymalıdır. Məktəbə xas olan ənənələr daim qorunmalı, nəsildən nəslə ötürülməlidir. Həmçinin, ümumi təhsil müəssisəsində qazanılan uğurlar davamlı olmalı, inkişafa istiqamətlənmiş tədbirlər həyata keçirilməlidir. Bu baxımdan Hacıqabul şəhəri 4 nömrəli tam orta məktəb özünəməxsus xüsusiyyətləri ilə diqqəti cəlb edir. Təsadüfi deyil ki, məktəb təlim və təhsildə qazandığı uğurlara görə rayonda nümunəvi ümumi təhsil müəssisələrindən biri sayılır.

Məktəbin binası 1890-cı ildə tikilib. 1930-cu ildə bu bina məktəb kimi istifadəyə verilib. 1970-ci ilə kimi məktəbdə tədris Azərbaycan dilində aparılıb. 1970-ci ildən 1990-cı ilə kimi Şirvan (keçmiş Əli Bayramlı) Şəhər Təhsil Şöbəsinin tabeliyində 15 nömrəli məktəb kimi fəaliyyətini davam etdirib. Azərbaycan müstəqillik qazandıqdan sonra beynəlmiləl məktəb elan olunub. Hacıqabul rayon statusu aldıqdan sonra Hacıqabul şəhər 4 nömrəli tam orta məktəb kimi həm Azərbaycan, həm də rus bölməsi üzrə fəaliyyət göstərir. Məktəbin binası 2013-ci ildə əsaslı təmir olunmuş və 60 şagird yerlik 3 əlavə sinif otağı tikilmişdir. Məktəbdə müəllimlərin fəaliyyəti və şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hər cür şərait var. Burada fənn kabinetləri, kompüter otağı, həmçinin, internet şəbəkəsinin mövcudluğu şagirdlərə keyfiyyətli təhsil verilməsinə şərait yaradır. Məktəbdə tədris aparılan bütün siniflərdə, foyedə qan yaddaşımızı əks etdirən stendlər asılmışdır. Belə bir şəraitdə səmərəli fəaliyyət göstərmək isə hər kəsin borcudur. Bunu dərk edən pedaqoji kollektiv də gələcəyimiz olan gənc nəsli Vətənə, torpağa məhəbbət, xalqa, adət-ənənələrə sədaqət ruhunda tərbiyə edir, şagirdlərin təhsilə, elmə marağının artırılması, geniş dünyagörüşə malik olması, vətənpərvər ruhda böyüməsi istiqamətində işlər görür.

Məktəbdə müəllim əməyinin dəyərləndirilməsi xüsusi diqqət yetirilən məsələlərdəndir. Məktəbdə hazırda 61 nəfər işçi çalışır. Onlardan 45 nəfəri müəllimdir. Müəllimlərdən 35 nəfəri ali təhsillidir. Məktəbdə 1981-ci ildən fasiləsiz olaraq ali təhsilli tarix müəlimi kimi çalışan İradə İbrahimova 2002-2003-cü tədris ilində Təhsil Nazirliyinin elan etdiyi "İlin ən yaxşı müəllimi" müsabiqəsində I dərəcəli diplomla, 2004-cü ildə isə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Fərmanı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

Çəkdikləri zəhmətə verilən yüksək dəyər qarşılığında müəllimlər də başa düşürlər ki, gənc nəslin təlim-tərbiyəsində aparıcı rol oynamaq, şagirdlərə bilik vermək, milli və bəşəri dəyərləri aşılamaq, onları şəxsiyyət kimi yetişdirmək, şagirdlərdə müəyyən bacarıq və vərdişlər formalaşdırmaq olduqca məsuliyyətlidir. Bu iş həm də savad, zəhmət və səbr tələb edir. Sevindirici haldır ki, məktəbin hər bir müəllimi üzərinə düşən məsuliyyəti yaxşı başa düşür, bu məkanı özünün doğma evi hesab edir. Hər kəs ümumi iş - məktəblilərin dərin biliyə sahib olması, hərtərəfli şəxsiyyət kimi yetişməsi üçün çalışır.

2019-2020-ci tədris ilində məktəbdə 485 nəfər şagird təhsil alır. Onlardan 380 nəfəri Azərbaycan bölməsinin, 105 nəfəri isə rus bölməsinin şagirdləridir. Məktəbdə şagirdlərə yüksək bilik verilməsi istiqamətində tədbirlər görülməklə yanaşı, onların dünyagörüşünün yüksəldilməsi, müxtəlif sahələrə marağının artırılması məqsədilə çoxsaylı tədbirlər təşkil edilir. Məktəbdə bilik və idman yarışları, ədəbi-bədii, elmi tədbirlər, müxtəlif sahələr üzrə tanınmış şəxslərlə görüşlər keçirilir, şagirdlərin tarixi məkanlara ekskursiyaları təşkil olunur.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, şagirdlər müxtəlif müsabiqə və yarışlarda ilk yerləri tutur, Fəxri fərman və diplomla təltif edilirlər. Belə ki, "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində təşkil olunan "Nə, harada, nə zaman" intellektual oyununda məktəbimizin komandası 2016-cı ildə III dərəcəli, 2018-ci ildə III dərəcəli, 2019-cu ildə I dərəcəli diploma layiq görülmüş və kubok qazanmışdır. Həmçinin ali məktəbə qəbulda da sükanı əldə saxlayan 4 saylı məktəb müsbət nəticələr göstərmişdir. Məktəbin məzunları Azərbaycanın və Türkiyənin nüfuzlu ali təhsil ocaqlarında təhsil alırlar. Məktəbin məzunu olmuş Rövşən Mirzəyev Uşak Universitetinin mədən fakültəsini bitirmiş, həmin müddətdə beynəlxalq hüquq təhsili almış, Polşanın Krakov universitetinin sertifikatını əldə etmişdir. Hazırda İtaliyada magistr təhsili alır.

Məktəbdə diqqət mərkəzində saxlanılan məsələlərdən biri də şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşdırılması və əzmkarlıq ruhunun artırılmasıdır. Məktəbin direktoru Hüseyn İbrahimov yüksək qürur hissi ilə qeyd edir ki, vətənimiz erməni təcavüzünə məruz qalanda ali şəhidlik zirvəsinə qalxan oğulların sırasında bu məktəbin də məzunlarının sayı heç də az deyil. Məktəbdə hərbi kabinet və silah otağı mövcuddur. Hərbi kabinetdə əyani vəsaitlər, plakatlar, hərbi and və dövlət atributları var. Məktəbdə hərbi-vətənpərvərlik guşəsi yaradılıb. Guşədə generalların, milli qəhrəmanların, məktəbin adını daşıyan şəhid məzunu Natiq Ağayevin, 2016-cı ilin aprel döyüşlərini özündə əks etdirən stendlər yer alıb. Məktəbin 7 nəfər məzunu həmin döyüşlərin iştirakçısı olmuşdur. Onlardan Rizvan Qarayev "Şücaətə görə" medalı ilə təltif olunmuşdur. Eyni zamanda hərbi hospitalda müalicə zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva hərbçi Rizvan Qarayevə baş çəkmiş, vəziyyəti ilə maraqlanmışdır. Həmçinin aprel döyüşlərində iştirak edən məktəbin məzunları Nizami Zalov və Fərid Ağayev "Qəhrəman Hərbi Hissənin Hərbi qulluqçusu" Fəxri fərmanı ilə təltif olunmuşdur. Məktəbin 8 məzunu Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi xidmət edir.

Vətənpərvərlik tərbiyəsi istiqamətində məktəbdə müntəzəm olaraq "dəyirmi masa"lar, yığıncaqlar, görüşlər, rəsm və şeir müsabiqələri, idman yarışları, veteranlar, hərbi xidmətdən tərxis olunmuş ehtiyatda olan hərbi qulluqçularla görüşlər keçirilir. Siniflərdə sinif saatlarında şagirdlərə vətənpərvərlik hissinin aşılanması üçün müntəzəm olaraq söhbətlər aparılır, məlumatlar verilir.

Məktəbin digər sahələr üzrə (idman, rəsm, şeir və inşa, fənn olimpiadaları, musiqi) də uğurları vardır. Hər bir uğurun təməli olur. Bu təməl möhkəm olarsa uğur onun üzərində inkişaf edib, daha da böyüyərək insanı zirvələrə ucaldır.

Bu günlərdə məqalənin müəllifi bu tədris ocağında olmuş və məktəb kitabxanasına müxtəlif mövzularda, o cümlədən ümummilli lider Heydər Əliyevin, onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti ilə bağlı kitablar, həmçinin tanınmış ziyalıların ədəbi-publisistik əsərlərini hədiyyə etmişdir.

**Rövşən AĞAYEV.**

Respublika.- 2019.- 13 dekabr.- S.6.